# İşğaldan azad edilmiş ərazilər əvvəlkindən də abad olacaq

**Erməni barbarlığı, vəhşiliyi işğal edilmiş ərazilərdəki dağıntılarda da özünü göstərdi. Hətta qəbiristanlıqların yerlə–yeksan edilməsi də təsdiqlədi ki, ermənilərdə insanlıqdan əsər–əlamət yoxdur. Vandallar işğal etdikləri torpaqlarda bütün infrastrukturu dağıdıb və faşistlərdən də qəddar olduqlarını nümayiş etdiriblər. Hazırda dünya erməni vəhşiliyinin şahididir.**



Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarına səfərləri, orada sərbəst gəzmələri, Xudafərin körpüsünə baş çəkmələri və dövlət başçımızın həmin ərazidə Azərbaycan bayrağını qaldırması hər birimizdə qürur hissi yaratdı. İşğaldan azad edilmiş ərazilərdə şanlı Azərbaycan bayrağının qaldırılması ölkəmizin müasir tarixinin ən şanlı səhifələrindəndir. Bəli, bir vaxtlar düşmən tapdağı altında qalmış ərazilərimizdə indi Azərbaycan bayrağı dalğalanır.

Möhtərəm Prezidentimiz çıxışlarında, məcburi köçkünlərlə görüşlərində qətiyyətlə bildirirdi ki, Dağlıq Qarabağ bizim qədim, tarixi torpağımızdır və biz mütləq o torpaqlara qayıdacağıq. Dağıdılmış bütün tarixi abidələri, evləri bərpa edəcəyik. Küçələrə Azərbaycan adlarını verəcəyik, adları dəyişdirilmiş kəndlərə öz əsl adlarını qaytaracağıq. Biz mütləq bunu edəcəyik. Haqq-ədalət bizim tərəfimizdədir. Bizim başqa ölkələrin torpağında gözümüz yoxdur, öz torpağımızı da heç kimə verməyəcəyik. Bu gün mövcud olan Ermənistan dövləti tarixi Azərbaycan torpaqlarında yaradılıbdır. Bu barədə kifayət qədər tarixi sənədlər var. İkinci erməni dövlətinin yaradılmasına biz heç vaxt imkan verməyəcəyik. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır! Bu gün artıq hər bir soydaşımız dövlət başçısının dediklərinin canlı şahididir. 27 il düşmən əsarətində qalan ərazilərimiz rəşadətli ordumuzun gücü hesabına azad edildi.

Dövlətimizin başçısı işğaldan azad edilmiş ərazilərdə olarkən, bir daha bildirdi ki, ikinci Qarabağ müharibəsi bizim şanlı Qələbəmizlə nəticələndi. Möhtərəm Prezidentimiz hazırda işğal edilmiş ərazilərimizə düşmən tərəfindən vurulmuş ziyanın hesablandığını, zərərçəkmiş bütün insanların dövlət dəstəyi hesabına öz dədə-baba torpaqlarına qayıdacağını bildirdi. Bu işlərin planlı şəkildə aparılacağını, ilk növbədə, ziyanın hesablanacağını, dəqiq uçot aparılacağını, ondan sonra bərpa-yenidənqurma işlərinin görüləcəyini diqqətə çatdırdı.

Möhtərəm Prezidentimiz işğaldan azad edilmiş ərazilərimizdə artıq quruculuq işlərinə başlanıldığını bildirdi: “Bildiyiniz kimi, işğal edilmiş və işğaldan azad olunmuş torpaqlarda düşmən bütün infrastrukturu dağıdıbdır. Bizim şəhərlərimiz, demək olar ki, yerlə-yeksan edilibdir və bu, düşmənin vəhşiliyini bir daha göstərir. Qələbə günündən 8 gün və Ermənistanın kapitulyasiyasından 6 gün keçəndən sonra artıq bu yerdən – Alxanlı qəsəbəsindən Füzuli--Şuşa avtomobil yolu çəkilir. Bu yol çox rahat və geniş olacaq. Bu yol imkan verəcək ki, Şuşaya rahat gedib-gələ bilək”.

Ermənistan ordusu məğlub olduğunu hiss etdikdən sonra mülki əhalini ağır artilleriyadan atəşə tutdu. Nəticədə 94 dinc vətəndaşımız qətlə yetirildi. Azərbaycan Ordusu isə müharibə qaydalarına tam əməl edərək dinc əhaliyə atəş açmadı. Hədəf yalnız işğalçı ordu idi. Dövlətimizin başçısı bu məsələyə də münasibət bildirdi. Dedi ki, bizim erməni xalqı ilə işimiz yoxdur. Bunu 44 gün ərzində çoxsaylı müsahibələrində dediyini də xatırlatdı və onların bizim vətəndaşlarımız olduğunu vurğuladı: “Onlar görəcəklər ki, Azərbaycan rəhbərliyi altında daha yaxşı yaşayacaqlar. Onlar kriminal, qorxaq xunta rejimindən öz yaxalarını qurtarmalıdırlar”.

Haqq-ədalət zəfər çaldı. Müzəffər Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrini diz çökdürdü və düşmən torpaqlarımızdan qovuldu. Azərbaycan bayrağı işğaldan azad edilmiş torpaqlarda qaldırıldı və bu bayraq əbədi dalğalanacaq.

***Məlahət İBRAHİMQIZI,***
***Milli Məclisin deputatı, YAP Nəsimi rayon təşkilatının sədri***

Xalq qəzeti 2020.- 22 noyabr.- S.3.